


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 sentyabr 2026-cı il №62 (3064) https://mod.gov.az Qiymətı 30 qəpik


## Prezident İlham Əliyev Hərbi Dəniz Qüvvələrində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hərbi Dəniz Qüvvələrində olublar.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı və birinci xanım Hərbi Dəniz Qüvvələrinin qərargahının qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "MİRAS Hərbi-Sənaye Şirkəti" MMC-nin və "DEARSAN Gəmi İnşaat Sənaye" AŞ-nin birgə istehsalat sahəsində qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə hazırlanan SALVO (SİDV) silahlı insansız dəniz vasitələri, KAYRA (KİDV) kamikadze insansız dəniz vasitələrinin təyinatı və taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

Sonra dövlətimizin başçısı və birinci xanım istehsalat sahəsində görülən işlərlə tanış olublar.

Daha sonra burada istehsal olunan insansız dəniz vasitələri praktiki sınaqdan keçirilib.

Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə hərbi quruculuq məsələlərinə dair operativ müşavirə keçirilib.

(Ardı 2-ci səhifədə)

### Prezidentin sosial şəbəkə hesablarında Hərbi Dəniz Qüvvələrində olması ilə bağlı paylaşım edilib



Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Hərbi Dəniz Qüvvələrində olması ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC paylaşımı təqdim edib.

### Prezidentin Mətbuat Xidmətinin məlumatı

Sentyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı dövlət başçıları iqtisadi-ticari və humanitar əməkdaşlığın bir sıra aktual məsələlərini müzakirə ediblər.

İkitərəfli əlaqələrin müxtəlif səviyyələrdə intensivləşdirilməsi barədə razılıq əldə olunub.

## “... qələbəni əldə edən əsgərdir, zabitdir”



Bir əsr əvvəl təməli atılan milli ordu quruculuğu xalqımız qarşısında göstərilən ən böyük tarixi xidmətlərdəndir. Çətin və ziddiyyətli bir dövrdə müstəqil dövlətin və onun nizam-intizamlı ordusunun əsasının qoyulması milli kimliyimizə və mənəvi irsimizə olan sadiqliyin parlaq sübutudur. Həmin dövrdə yaradılan milli hərbi ənənələr sonrakı mərhələlərdə Azərbaycan dövlətçiliyinin mühüm dayaqlarından birinə çevrilib. Ordu quruculuğu tarixin müxtəlif mərhələlərində sınaqlardan keçərək bu gün müasir və qüdrətli Azərbaycan Ordusunun formalaşmasına zəmin yaradıb.

Bu tarixi ənənənin davamı olaraq, Azərbaycan Ordusunun gücü və qüdrəti onun əsas dayağı olan şəxsi heyətin peşəkarlığı və döyüş ruhunda öz əksini tapır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Nə qədər dövlətin gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, qələbəni əldə edən əsgərdir, zabitdir”. Bu fikir ordunun qüdrətinin yalnız silah və texnika ilə ölçülmədiyini, onun əsas güc mənbəyinin Vətənə sədaqətlə xidmət edən hərbi qulluqçular olduğunu aydın ifadə edir. Məhz buna görə Azərbaycan Ordusunda şəxsi heyətin hazırlığı, peşəkarlığı və mənəvi-psixoloji dayanıqlılığı daim diqqət mərkəzində saxlanılır.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Ordusunda yeni tədris ili başlayıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində yeni tədris ilinin başlanması ilə əlaqədar tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, keçirilən tədbirlərdə hərbi orkestrlərin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Tədbirlərdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları, müdafiə nazirinin və Baş Qərargahın qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması ilə bağlı əmr və direktivləri şəxsi heyətin diqqətinə çatdırıblar.

Yeni tədris ilində qabaqcıl metodlardan və yüksək texnologiyalardan geniş istifadə etməklə keçirilən təlim-məşqlərin keyfiyyətinin, eləcə də intensivliyinin artırılmasının vacibliyi qeyd edilib.

Bildirilib ki, müdafiə nazirinin tapşırığına əsasən, 44 günlük Vətən müharibəsində və sonrakı döyüş əməliyyatlarında qazanılmış döyüş



təcrübəsi nəzərə alınmaqla, tədris prosesində əsas diqqət müxtəlif iqlim, çətin relyef şəraitində, gecə və gündüz saatlarında şəxsi heyət tərəfindən müasir döyüş texnikası və silah-sursatın effektiv tətbiq edilməsi üzrə bacarıqlarının daha da artırılmasına yönəldiləcəkdir.

Maddi-texniki bazanın gücləndirilməsi, avtomatlaşdırılmış idarəetmə sistemlərinin tədbiqi, əsaslı planlaşdırma və digər təşkilati məsələlərin uğurlu həlli yeni tədris dövründə döyüş hazırlığının daha keyfiyyətli təşkilinə zəmin yaradacaqdır.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.





# Prezident İlham Əliyev Hərbi Dəniz Qüvvələrində olub





(Əvvəli 1-ci səhifədə)

* * *

Güclü və müasir ordu hər bir dövlətin təhlükəsizliyinin və suverenliyinin təminatıdır. Bu mənada, hərbi dəniz donanması dəniz sərhədləri olan ölkələr üçün xüsusilə strateji əhəmiyyət daşıyır.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Hərbi Dəniz Qüvvələrinə səfəri Azərbaycanın hərbi dənizçilik sahəsində əldə etdiyi imkanları bir daha nümayiş etdirdi. Səfər zamanı yeni nəsil insansız dəniz vasitələrinin təqdim olunması və onların praktiki sınaqlarının keçirilməsi göstərdi ki, bu gün Azərbaycan Hərbi Dəniz Qüvvələrinin inkişafı yalnız mövcud imkanların qorunması ilə məhdudlaşmır, həm də müasir texnologiyaların tətbiqi və yerli müdafiə sənayesinin imkanlarının genişləndirilməsi hesabına yeni mərhələyə qədəm qoyur.







Azərbaycanın hərbi dənizçilik tarixinin kökləri Azərbaycan Xalq Cümhuriyyəti dövrünə gedib çıxır. 1919-cu ildə milli donanmanın yaradılması istiqamətində mühüm addımlar atılır, müxtəlif təyinatlı gəmilərdən ibarət qüvvənin formalaşdırılması, idarəetmə sisteminin qurulması və dənizçi kadrların hazırlanması məsələləri diqqətdə saxlanılırdı. Lakin 1920-ci ildə Cümhuriyyətin süqutu bu prosesin qarşısını aldı.

Milli hərbi dənizçilik ənənəsi Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra yenidən canlandı.

Müstəqilliyin ilk illərində qarşıya çıxan çətinliklərə baxmayaraq, HDQ-nin təşkilati strukturu formalaşdırıldı, sahil və gəmi bölmələrinin fəaliyyəti quruldu, müşahidə imkanları bərpa edildi.







Sonrakı illərdə Hərbi Dəniz Qüvvələrinin inkişafı Silahlı Qüvvələrin modernləşdirilməsi siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. İdarəetmə və döyüş hazırlığı təkmilləşdirildi, gəmi və sahil bölmələrinin maddi-texniki imkanları gücləndirildi, şəxsi heyətin peşəkarlığının artırılmasına diqqət yönəldildi.

Bu gün Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qarşısında əvvəlki dövrlərlə müqayisədə daha geniş və mürəkkəb vəzifələr dayanır. Xəzərin Azərbaycan sektorunda təhlükəsizliyin təmin edilməsi, strateji və enerji infrastrukturunun mühafizəsi, dənizdə mümkün təhdidlərin vaxtında aşkarlanması və qarşısının alınması, müxtəlif şəraitlərdə çevik fəaliyyət göstərilməsi müasir hazırlıq tələb edir. Bu məqsədlə keçirilən taktiki təlimlərdə şəxsi heyətin və gəmi qruplarının müxtəlif ssenarilər üzrə fəaliyyəti yoxlanılır, real döyüş şəraitinə maksimum yaxın vəziyyətdə qərarvermə və qarşılıqlı fəaliyyət bacarıqları təkmilləşdirilir.

HDQ-nin inkişafının mühüm göstəricilərindən biri də beynəlxalq hərbi əməkdaşlığın genişlənməsidir. Azərbaycan hərbi dənizçilərinin müxtəlif ölkələrin iştirakı ilə keçirilən birgə təlimlərə cəlb olunması təcrübə mübadiləsinə, qarşılıqlı fəaliyyət imkanlarının artırılmasına və peşəkar hazırlığın daha da yüksəldilməsinə xidmət edir. Belə təlimlər Azərbaycan HDQ-nin müasir dəniz təhlükəsizliyi tələblərinə uyğunlaşmasını sürətləndirən amillərdəndir.

Müasir dövrdə inkişafın əsas predmetlərindən biri texnoloji yenilənmədir. Sentyabrın 6-da Prezident İlham Əliyevə təqdim olunan SALVO silahlı və KAYRA kamikadze insansız dəniz vasitələri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Birgə istehsal sahəsində hazırlanmış bu sistemlərin təqdim edilməsi və praktiki sınaqlarının keçirilməsi Azərbaycanın dəniz istiqamətində müdafiə sənayesi imkanlarının genişləndiyini göstərir. İnsansız sistemlərin hərbi sahədə tətbiqinin genişlənməsi HDQ qarşısında yeni imkanlarla yanaşı, yeni hazırlıq və idarəetmə tələbləri də yaradır.

Bir əsrdən artıq tarixə malik müasir Azərbaycan hərbi dənizçiliyi bu gün yeni mərhələsini yaşayır. Yerli istehsalın genişlənməsi yalnız yeni texnikanın əldə edilməsinə deyil, həm də onun istismarı, texniki xidməti və təkmilləşdirilməsi üçün milli imkanların formalaşmasına şərait yaradır. Bu inkişafın əsas xüsusiyyəti ondan ibarətdir ki, müasir HDQ yalnız ənənəvi gəmiçilik imkanlarına deyil, yeni nəsil texnologiyalara, peşəkar şəxsi heyətə, genişlənən beynəlxalq əməkdaşlığa və yerli müdafiə sənayesinin istehsal gücünə söykənir.

Bütün texniki imkanların arxasında isə peşəkar hərbi dənizçi dayanır. Dəniz xidməti yüksək intizam, xüsusi hazırlıq, texniki bilik və istənilən şəraitdə düzgün qərar qəbul etmək bacarığı tələb edir. Buna görə şəxsi heyətin hazırlığı, təlimlərin intensivliyi və müasir texnologiyalarla işləmək bacarığının artırılması HDQ-nin inkişafında əsas amillərdən olaraq qalır.

Bu gün HDQ-nin inkişafı Azərbaycanın dənizdə təhlükəsizliyinin təmin olunması ilə yanaşı, ölkənin müdafiə sənayesində texnoloji potensialının artmasının da göstəricisidir. Dünən milli donanmanın yaradılması ilə başlanan tarix bu gün müasir gəmilər, yeni nəsil insansız sistemlər və peşəkar hərbi dənizçilərlə davam edir.

**“Azərbaycan Ordusu”**







# “... qələbəni əldə edən əsgərdir, zabitdir”

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Ordusunun inkişafında mühüm nailiyyətlər əldə olunub. Ordu quruculuğu istiqamətində görülən işlər qoşunların idarəetmə imkanlarının genişləndirilməsinə, döyüş hazırlığının yüksəldilməsinə və hərbi potensialın daha da gücləndirilməsinə yönəldilib. Hərbi hissələrdə yaradılan müasir xidmət şəraiti şəxsi heyətin üzərinə düşən vəzifələri daha səmərəli yerinə yetirməsinə imkan verir. Müasir standartlara uyğun inşa edilən qərargahlar, kazarmalar, yeməkxanalar, tibb məntəqələri və digər obyektlər hərbi qulluqçuların xidmətinin yüksək səviyyədə təşkilini təmin edir. Hərbi şəhərciklərin abadlaşdırılması, kommunikasiya xətlərinin yenilənməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması dövlətin hərbi qulluqçulara göstərdiyi diqqətin mühüm göstəricilərindəndir.



Müasir ordu yalnız yüksək səviyyəli infrastrukturla deyil, güclü silahlanma və texnoloji imkanlarla da xarakterizə olunur. Azərbaycan Ordusunun arsenalının ən müasir silah və texnika nümunələri hesabına yenilənməsi qoşunların döyüş imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Müasir artilleriya sistemləri, zirehli texnika, pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə vasitələri və digər döyüş sistemləri müxtəlif istiqamətlərdə tapşırıqların effektiv yerinə yetirilməsinə geniş imkanlar yaradır. Yeni nəsil rabitə, idarəetmə və müşahidə vasitələrinin tətbiqi qoşunların çevikliyini və idarəetmənin operativliyini yüksəldir. Silah və texnikanın arsenalda yer alması ilə yanaşı, onların imkanlarından düzgün və səmərəli istifadə edə bilən peşəkar şəxsi heyətin hazırlanmasına xüsusi əhəmiyyət verilir.



Bu baxımdan hərbi qulluqçuların maddi-texniki təminatının müasir tələblərə uyğun qurulması mühüm əhəmiyyət daşıyır. Şəxsi heyətin geyim, qida, tibbi xidmət, məişət və digər təminat növləri üzrə tələbatının vaxtında və keyfiyyətlə qarşılanması xidmətin səmərəli təşkilinə mühüm töhfə verir. Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması onların xidmətə münasibətinə və mənəvi ruhuna müsbət təsir göstərir. Dövlət qayğısının konkret nəticələri hərbi hissələrdə yaradılan şəraitdə, şəxsi heyətin təminatında və qoşunların fəaliyyətinin təşkilində aydın görünür. Bütün bunlar Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, hərbi qulluqçuların Vətən qarşısında məsuliyyət hissinin möhkəmləndirilməsinə xidmət edir.

Ordu quruculuğunda əldə olunan nəticələrin davamlı xarakter daşıması üçün hərbi hissələrdə xidmətin təşkili və döyüş hazırlığının vəziyyəti mütəmadi olaraq diqqətdə saxlanılır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi hissələrdə qarşıya qoyulan vəzifələrin icrası, şəxsi heyətin hazırlıq səviyyəsi və qoşunların fəaliyyətinin təşkili ilə bağlı tədbirlər ardıcıl şəkildə həyata keçirilir. Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissələrə səfərlər edir, şəxsi heyətlə görüşür, xidmət şəraiti və döyüş hazırlığının vəziyyəti ilə yerində tanış olur. Görüşlər zamanı hərbi qulluqçuların fikirləri dinlənilir, mövcud məsələlər araşdırılır və qarşıda duran vəzifələr müəyyənləşdirilir. Bu yanaşma komandanlıqla şəxsi heyət arasında qarşılıqlı əlaqənin daha da möhkəmlənməsinə, xidmətin səmərəli təşkilinə şərait yaradır.

Hərbi hissələrə baxışlar zamanı qoşunların hazırlıq vəziyyəti ilə yanaşı, yaradılan infrastrukturun imkanları və şəxsi heyətin xidmət şəraiti də qiymətləndirilir. Komandanlıq tərəfindən hərbi hissələrin fəaliyyətinin daha səmərəli təşkili, nizam-intizamın möhkəmləndirilməsi və qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə icrası ilə bağlı müvafiq göstərişlər verilir. Təlim və məşqlərin nəticələri təhlil olunur, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilir. Şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi, müasir döyüş üsullarının mənimsənilməsi və yeni texnologiyalardan istifadə bacarıqlarının artırılması hazırlıq prosesinin əsas istiqamətlərindəndir. Bu tədbirlər hərbi qulluqçuların istənilən şəraitdə qarşıya qoyulan tapşırıqları dəqiq və çevik yerinə yetirməsinə imkan verən hazırlıq səviyyəsinin formalaşdırılmasına xidmət edir.

Hərbi hissələrdə yaradılan şəraitin miqyası və müasirliyi görülən işlərin nəticələrini əyani şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun maddi-texniki təminatı daha da gücləndirilir və müasir standartlara cavab verən hərbi infrastrukturlar qurulur. Müvafiq istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsi olaraq müxtəlif bölgələrdə yeni hərbi obyektlər istifadəyə verilir. Bu yaxınlarda Müdafiə Nazirliyinin rəhbər heyəti Hava Hücumundan Müdafiə bölmələrinin istifadəsinə verilən yeni hərbi obyektlərə və Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrində xidməti-döyüş fəaliyyətinin təşkili və hərbi qulluqçularla yaradılan sosial-məişət şəraitə baxış keçirib.

Baxış zamanı rəhbər heyətə məruzə olunub ki, respublikamızın müxtəlif bölgələrində hava hücumundan müdafiə bölmələrinə aid yeni istifadəyə verilmiş 20-yə yaxın hərbi infrastruktur obyektində şəxsi heyətin xidməti-döyüş fəaliyyəti üçün lazımi şərait yaradılıb. Həmin obyektlərdə yeməkxana, mətbəx, tibb məntəqəsi, yataqxana, silah otağı, məişət otağı, hamam-sanitar qovşağı, qazanxana və su təchizatı kompleksi yaradılıb. Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Binalar kommunal xidmət sistemləri və kommunikasiya xətləri, o cümlədən yanğın əleyhinə siqnalizasiya ilə təchiz edilib. İnfrastruktur obyektləri şəxsi heyətin zəruri ehtiyaclarını qarşılamaq üçün müasir avadanlıq, mebel və inventarlarla təmin olunub. Yaradılan şərait hərbi qulluqçuların gündəlik fəaliyyətinin daha səmərəli təşkilinə və xidmətin yüksək səviyyədə aparılmasına imkan verir.

Hərbi infrastrukturun yenilənməsi ilə yanaşı, qoşunların texniki imkanlarının artırılması da diqqətdə saxlanılır. General-polkovnik Zakir Həsənov ölkəmizin hava məkanının fasiləsiz müdafiəsi, HHM bölmələrində keçirilən təlim və məşqlər zamanı arsenala yeni daxil edilmiş müasir silah və texnikanın taktiki-texniki xüsusiyyətlərinin dərindən öyrənilməsi, onların döyüş şəraitində effektiv tətbiqi qaydalarının mənimsənilməsi barədə Hava Döyüş Komandanlığına müvafiq tapşırıqlar verib. Verilən tapşırıqlar şəxsi heyətin yeni silah və texnikaya tam yiyələnməsini, onların imkanlarından düzgün istifadə olunmasını və döyüş hazırlığının daha da yüksəldilməsini qarşıya məqsəd qoyur. Hava məkanının etibarlı müdafiəsi üçün şəxsi heyətin peşəkar hazırlığı, texniki vasitələrin daim saz vəziyyətdə saxlanılması və təlimlərin real döyüş şəraitinə maksimum yaxın təşkil edilməsi mühüm şərtlərdəndir.

Səfər zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin döyüş mövqelərində xidmət edən şəxsi heyətlə də söhbətlər aparılıb, onların qayğıları ilə maraqlanılıb. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti və qayğısı sayəsində hərbi hissələrdə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasını təmin edən bütün zəruri infrastruktur yaradılıb. Hərbi hissələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, döyüş növbətçiliyinin fasiləsiz və təhlükəsizlik təşkili məqsədilə bütün lazımi tədbirlər həyata keçirilib. Hərbi hissələrin döyüş mövqelərində artilleriya zərbələri və pilotsuz uçuş aparatlarının təhdidlərinə dayanıqlı mühəndis fortifikasiya qurğuları hazırlanıb.

Əlahiddə Ümumqoşun Ordunun təlim poliqonunda olan nazirliyin rəhbərliyinə məlumat verilib ki, burada bölmələrin döyüş hazırlığı planlarında nəzərdə tutulmuş təlim və məşqlərin real döyüş vəziyyətinə uyğun keçirilməsinə imkan yaradılıb.



Səfərin sonunda müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, döyüş hazırlığı məşğələlərinin intensivliyinin daha da artırılması, eləcə də silah və texnikanın səmərəli tətbiqinin öyrənilməsi ilə bağlı aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verilib.

Azərbaycan Ordusunun əldə etdiyi yüksək hazırlıq səviyyəsi, ilk növbədə, şəxsi heyətin üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşması ilə bağlıdır. Hər bir hərbi qulluqçunun öz vəzifəsini dəqiq bilməsi, nizamnamə tələblərinə ciddi əməl etməsi və komandirin tapşırıqlarını vaxtında yerinə yetirməsi qoşunların fəaliyyətində mühüm rol oynayır. Hərbi qulluqçunun peşəkarlığı müasir silah və texnikanın imkanlarının tam reallaşdırılmasına şərait yaradır. Komandanlığın tələbkarlığı ilə şəxsi heyətin yüksək mənəvi keyfiyyətləri bir araya gəldikdə vahid və güclü döyüş ruhu formalaşır. Bu ruh Azərbaycan Ordusunun qarşıya qoyulan tapşırıqları istənilən şəraitdə layiqincə yerinə yetirməsinə imkan verən əsas amillərdəndir. Vətənə sədaqət, Hərbi Anda bağlılıq və peşəkar hazırlıq hər bir hərbi qulluqçunun xidmət fəaliyyətinin əsasını təşkil edir.

Bu gün Azərbaycan Ordusunun qarşısında yeni hədəflər və mühüm vəzifələr dayanır. Hərbi sahədə tətbiq olunan müasir texnologiyalar, yeni döyüş vasitələri və qabaqcıl idarəetmə üsulları şəxsi heyətin hazırlığına qarşı tələbləri də yüksəldir. Bu tələblərə uyğun olaraq hərbi qulluqçuların bilik və bacarıqlarının davamlı inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ordu quruculuğuna yönəlmiş dövlət siyasəti Azərbaycan Ordusunun gələcəkdə də yüksək döyüş qabiliyyətini qoruyub saxlamasına möhkəm zəmin yaradır. Qarşıya qoyulan vəzifələrin ardıcıl icrası Azərbaycan Ordusunun müdafiə imkanlarını daha da genişləndirir və ölkəmizin təhlükəsizliyinin etibarlı təminatına xidmət edir. Fəxrlə deyə bilərik ki, güclü dövlətin dayaqlarından biri olan qüdrətli Azərbaycan Ordusu Vətənin müdafiəsinə daim hazırdır.

Ordu quruculuğunun tarixi ənənələri ilə müasir inkişafın vəhdəti Azərbaycan Ordusunun bugünkü simasını müəyyənləşdirir. Dövlətin hərbi sahəyə göstərdiyi yüksək diqqət, şəxsi heyətin fədakarlığı və komandanlığın qarşıya qoyduğu tələblər vahid məqsədə - Azərbaycanın ərazi bütövlüyünün və təhlükəsizliyinin etibarlı müdafiəsinə xidmət edir. Hərbi qulluqçuların peşəkar inkişafı, döyüş hazırlığının möhkəmləndirilməsi və xidmət şəraitinin daim yaxşılaşdırılması bu məqsədin mühüm tərkib hissəsidir. Azərbaycan Ordusunda formalaşan yüksək nizam-intizam və döyüş ruhu xalqımızın orduya olan inamını daha da möhkəmləndirir. Bu inam hər bir hərbi qulluqçu üçün böyük məsuliyyət olmaqla yanaşı, Vətən qarşısında şərəfli xidmətin mənəvi dayağıdır. Azərbaycan Ordusu bundan sonra da dövlətimizin təhlükəsizliyinin təmin olunmasında öz üzərinə düşən vəzifələri yüksək peşəkarlıq və qətiyyətlə yerinə yetirəcək.

**Kapitan**
**Əli ABIYEV**
**“Azərbaycan Ordusu”**

# Atalarının xatirəsi yaşayır - bəzən bir fotoşəkildə, bəzən də atalarından eşitdiyi bir sözdə...

*15 sentyabr – Bilik Günü münasibətilə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə şəhid ailələrinin övladları üçün “Birliklə başla, Zəfərlə ucal!” devizi altında tədbir keçirildi. Səməd Vurğun adına Yaradıcılıq Evində təşkil olunan görüşün əsas məqsədi şəhid övladlarını yeni tədris ili münasibətilə təbrik etmək, təhsildə fərqlənən uşaqları həvəsləndirmək, şəhid ailələrinə göstərilən diqqət və qayğını bir daha nümayiş etdirmək idi.*





Tədbirə şəhid ailələrinin övladları, ailə üzvləri, Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təmsilçiləri və digər qonaqlar qatılmışdılar. Görüşün keçirilməsi üçün seçilən Səməd Vurğun adına Yaradıcılıq Evi də uşaqların rahat vaxt keçirməsi üçün əlverişli imkan yaratmışdı. Gün ərzində onlar müxtəlif oyunlarda iştirak etdilər, əyləncəli proqramlara qoşuldular, bir-biriləri ilə ünsiyyət saxladılar. Təhsildə uğur qazanan uşaqlara isə sertifikat və hədiyyələr təqdim olundu. Tədbirin aparıcısı İslam Əlizadə əvvəlcə görüşün məqsədindən danışdı. O, şəhid ailələrinin övladları üçün belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğuladı. İslam Əlizadə belə bir tədbirdə aparıcı kimi iştirak etməyi özü üçün də məsuliyyət və şərəf hesab etdiyini bildirdi.

Sonra Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, Birinci Qarabağ müharibəsinin iştirakçısı Kərim Rzayev çıxış edərək tədbirin təşkilində iştirak edən və dəstək göstərən hər kəsə təşəkkürünü bildirdi. Xüsusilə Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Nəbiyevin tədbirə göstərdiyi diqqəti qeyd etdi. Kərim Rzayev çıxışında şəhid övladlarının yanında olmağın vacibliyindən danışaraq bildirdi ki, onların sevincinə şərik olmaq, problemləri və qayğıları ilə maraqlanmaq yalnız müəyyən tarixlərlə məhdudlaşmamalıdır.



Tədbirdə çıxış edən Hikmət Nəbiyev də şəhid ailələrinə, xüsusilə onların övladlarına göstərilən diqqətin vacibliyindən danışdı. O bildirdi ki, belə görüşlər uşaqlar üçün yalnız əyləncə xarakteri daşımır. Məqsəd həm də onların yeni dərs ilinə xoş ovqatla başlamasına, həmyaşıdları ilə bir araya gəlməsinə, təhsildə qazandıqları nəticələrin qiymətləndirilməsinə şərait yaratmaqdır.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova isə şəhid övladlarının daim diqqətdə saxlanılmasının vacibliyindən danışdı: “Şəhidlərin övladları cəmiyyətin xüsusi qayğı göstərməli olduğu uşaqlardır. Bu uşaqların yanında olmaq, onların uğurlarını bölüşmək və ehtiyac duyduqları zaman dəstək göstərmək mühüm məsələdir”. Aygün Məmmədova şəhid övladlarını “şəhidlərimizin əmanəti” kimi xarakterizə edərək, cəmiyyətin onları heç zaman diqqətdən kənarda qoymamalı olduğunu bildirdi.

Uşaqların tədbirə münasibətindən görünürdü ki, onlar üçün belə görüşlər həmyaşıdları ilə ünsiyyət baxımından da maraqlıdır.

Tədbirin rəsmi hissəsindən sonra şəhid ailələrinin üzvləri ilə söhbət etdik. Hər ailənin yaddaşında özünəməxsus xatirələr vardı. Kimisi həyat yoldaşından, kimisi atasından, kimisi isə övladının atasına olan münasibətindən danışdı. Söhbətlərin ümumi mövzusu isə eyni idi - şəhidlərin ailədə, övladlarının yaddaşında və gündəlik həyatında yaşatdığı iz.

Gülnarə Quliyeva şəhid kapitan Şahmar Quliyevin həyat yoldaşıdır. O, tədbirin təşkilinə görə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə və Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, şəhid ailələrinə göstərilən dövlət qayğısını daim hiss edirlər. Gülnarə xanım həyat yoldaşını ailəsinə bağlı, zəhmətkeş və vətənpərvər insan kimi xatırlayır. Şahmar şəhid olanda oğlu hələ üç yaşında idi. Buna görə də Kəmaləddinin atasına dair xatirələri əsasən ailənin danışdıqları və qorunan fotoşəkillərlə formalaşıb.

Şahmar Quliyev 7 noyabr 1991-ci ildə Naxçıvan şəhərində anadan olub. Vətən müharibəsi zamanı Tərtər və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Döyüş yoldaşlarının xatirələrində cəsarətli və qorxmaz zabit kimi qalıb. Şəhidliyindən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Kəmaləddin Quliyev atasından danışarkən onunla fəxr etdiyini söylədi. Atasını itirəndə üç yaş yarımlıq olan Kəmaləddin bu gün onu daha çox ailəsinin söhbətlərindən tanıyırdı. Tədbirdə iştirak etməkdən, digər uşaqlarla vaxt keçirməkdən və təşkil olunan oyunlardan məmnun qaldığını bildirdi.

Qəmər Rəhimli ilə söhbətimiz isə şəhidlik mövzusunun onun ailəsi üçün iki nəsli əhatə etdiyini göstərdi. 1993-cü ildə Ağdamda anadan olan Qəmər xanım həm şəhid qızı, həm də şəhid həyat yoldaşıdır. Onun atası Birinci Qarabağ müharibəsində, həyat yoldaşı Murad Rəhimli isə Vətən müharibəsində şəhid olub.




Qəmər Rəhimli tədbirin təşkilini yüksək qiymətləndirdi, şəhid ailələrinə göstərilən diqqətə görə təşəkkür etdi, uşaqların belə tədbirlərdə bir araya gəlməsinin, birlikdə vaxt keçirməsinin onlar üçün vacibliyini ifadə etdi.

Şəhidimiz Murad Rəhimli 1991-ci ildə Sumqayıt şəhərində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ekologiya fakültəsində təhsil alıb. 2020-ci ildə müharibə başlayanda könüllü olaraq döyüşlərə qatılıb. Tərtər-Ağdərə istiqamətində, daha sonra Suqovuşan ətrafında gedən döyüşlərdə vuruşaraq şəhid olub. Şəhidimizin oğlu atasını sonuncu dəfə dörd yaşında görüb. Atasının ona aldığı oyuncaq hələ də ailədə saxlanılır. Bu oyuncaq uşağın yaddaşında atasından qalan əşyalardan biridir. O, atasının cəsur insan olduğunu, şəhid oğlu olması ilə fəxr etdiyini bildirdi.

Aygün Babayeva şəhid mayor Rahib Babayevin həyat yoldaşıdır. O, belə görüşlərin şəhid ailələrinin xatırlanması baxımından əhəmiyyətli olduğunu bildirdi. Onun sözlərinə görə, uşaqlar üçün təşkil olunan tədbirlər onların həmyaşıdları ilə ünsiyyət qurmasına imkan yaradıb və diqqət mərkəzində olduqlarını hiss etdirir.

Rahib Babayev 19 iyun 1985-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. 2006-cı ildən hərbi xidmət keçib. Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. 30 sentyabr 2020-ci ildə şəhid olub. Ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

Aygün xanım Rahibi ailəsinə bağlı və məsuliyyətli insan kimi xatırlayır. Onun haqqında danışarkən, ilk növbədə, insan kimi xüsusiyyətlərini önə çəkir. Rahibin oğlu İbrahim isə atasını beş yaşında itirib. Onun yaddaşında atasının sevgisi və birlikdə keçirdikləri vaxt qalıb. İbrahim tədbirdə iştirak edən digər uşaqlar kimi gün ərzində müxtəlif oyunlara qoşulurdu.

Aynur Babayeva şəhid baş leytenant Vüsal Babayevin həyat yoldaşıdır. O da belə tədbirlərin artıq bir neçə ildir keçirildiyini və uşaqlar üçün maraqlı olduğunu bildirdi. Təşkilatçılara göstərilən diqqətə görə təşəkkürünü çatdırdı.



Şəhidimiz Vüsal Babayev 1992-ci ildə Pirallahı rayonunda anadan olub. İndiki Heydər Əliyev adına Hərbi İnstitutda hərbi təhsil alıb, 2014-cü ildə leytenant kimi məzun olub. Daha sonra indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən kursda təhsil alıb. Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə yaralı silahdaşına kömək edərkən şəhid olub.

Aynur xanımın sözlərindən Vüsalın ailəsinə bağlılığı və silahdaşlarına münasibəti xüsusilə seçilirdi. O, həyat yoldaşını səmimi, mehriban, ailəcanlı insan kimi xatırlayır.

Vətən qarşısında borcunu yerinə yetirməyi öz məsuliyyəti hesab edən Vüsalın döyüş yoldaşlarına münasibəti də ailəsinin yaddaşında qalıb.

Şəhidimizin qızı Selcan Babayeva isə tədbirdən məmnun qaldığını, oyunların maraqlı olduğunu söylədi. Atasından danışarkən onun üçün ən vacib olan xüsusiyyəti bir neçə sözlə ifadə etdi: “Mən şəhid qızıyam. Mənim atam igiddir, qorxmazdır...”.

Günel Mirzəyeva şəhid kiçik çavuş Elçin Mirzəyevin həyat yoldaşıdır. O, tədbirin təşkilinə və şəhid ailələrinə göstərilən diqqətə görə təşəkkür etdi.

Elçinin qızı Aylin atasını beş yaşında itirib. Onun atasından qalan xatirələri arasında işdən qayıdarkən gətirdiyi şokoladlar xüsusi yer tutur. Uşaq üçün adi görünən bu kiçik diqqət illər sonra ən qiymətli xatirələrdən birinə çevrilib. Aylin atasını sevdiyini, onun daim yanında olduğunu hiss etdiyini dedi.

Günel xanım Elçini cəsarətli, dürüst və etibarlı insan kimi xarakterizə etdi. Onun sözlərinə görə Elçin Vətənə bağlılığı ilə seçilib və öz işinə ciddi yanaşıb. Həyat yoldaşı onun kəşfiyyatçı kimi xidmət etdiyini uzun müddət bilməyib.

**(Ardı 5-ci səhifədə)**

# Atalarının xatirəsi yaşayır - bəzən bir fotoşəkildə, bəzən də atalarından eşitdiyi bir sözdə...



(Əvvəli 4-cü səhifədə)

Elçin Mirzəyev 31 iyul 1985-ci ildə Goranboy rayonunun Xanqərvənd kəndində anadan olub. Mingəçevir Tibb Kollecində ortopedik stomatologiya üzrə təhsil alıb. Hərbi xidmət keçdikdən sonra əmək fəaliyyətinə başlayıb. 2007-ci ildə ailə həyatı qurub, 2014-cü ildən kəşfiyyatçı kimi həqiqi hərbi xidmət keçib. Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib. Döyüşlərdən birində yaralanaraq şəhid olub. Ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.



Qələmşah Əhədov isə şəhid mayor İlkin Əhədzadənin atasıdır. O, oğlunun uşaqlıqdan hərb sənətinə maraq göstərdiyini söylədi. Ailənin əvvəlcə bu seçimə müəyyən etirazı olsa da, İlkin qərarından dönməyib. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, daha sonra isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb.

İlkin Əhədzadə 26 iyun 1985-ci ildə Bakıda anadan olub. Hərbi təhsil aldıqdan sonra zabit kimi xidmətə başlayıb və uzun müddət ön xətdə xidmət edib. Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. 1 oktyabr 2020-ci ildə şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeni, “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “İgidliyə görə” medalları ilə təltif edilib.

Qələmşah Əhədov oğlunun xarakterindən danışarkən onun hərbçi olmağa olan münasibətini xüsusi qeyd etdi. İlkin üçün bu seçim sadəcə peşə seçimi deyildi. O, uzun illər xidmət edib, ön xətdə olub və hərbi kollektivin içində formalaşıb.

Şəhidimiz İlkin Əhədzadənin oğlu Uğur Əhədzadə üçün ata obrazı həm də dost obrazıdır. Atası şəhid olanda onun dörd yaşı vardı. Buna baxmayaraq, Uğur atasını özünə ən yaxın insanlardan biri hesab edir. Tədbirdə də atasından qürurla danışdı, təşkilatçılara təşəkkür etdi. Şəhidimizin qızı Fidan Əhədzadə isə bu il ADA Universitetinə qəbul olunub. Ailəsi üçün bu uğur xüsusi sevinc mənbəyidir. Yeni təhsil mərhələsinə qədəm qoyan Fidanın qarşısında böyük imkanlar açılır.

Növbəti müsahibimiz şəhid gizir Şəhriyar Quliyevin həyat yoldaşı Pərvin Quliyevadır.

Şəhriyar Quliyev 25 may 1990-cı ildə Ağdam rayonunun Cinli kəndində anadan olub. 2008-2009-cu illərdə müddətli həqiqi hərbi xidmət keçib, 2009-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Xüsusi təyinatlı bölmədə xidmət edib. Aprel döyüşlərinin iştirakçısı olan Şəhriyar Vətən müharibəsi zamanı Cəbrayıl, Hadrut, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə igidliklə vuruşub. 21 oktyabr 2020-ci ildə şəhid olub. Ölümündən sonra “Qarabağ” ordeni, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Pərvin xanım Şəhriyarı ailəsinə bağlı, zəhmətkeş, səxavətli və köməksevər insan kimi xatırlayır. 2016-cı ilin döyüşləri zamanı övladları dünyaya gələndə Şəhriyar cəbhədə idi. Həyat yoldaşına “Sən güclü qadınsan. Mən tezliklə gələcəyəm”, - demişdi. Döyüşlərdən sonra övladını qucağına almışdı. Vətən müharibəsi başlamazdan əvvəl də ailənin yaddaşında qalan söhbətlərdən biri son gedişi ilə bağlıdır. Sentyabrın son günlərində Şəhriyar həyat yoldaşından sonuncu çayını istəmiş və yola düşmüşdü.




Bu, onların son görüşlərindən biri oldu. Şəhidimizin ailə üzvləri ona həsr etdiyi şeirin bir bəndini də bizimlə bölüşdü:

*Yoxluğun ölüm deyil,*
*Sən yaşayırsan, sağsan.*
*Zirvələrdə dalğalanan*
*Sən üçrəngli bayraqsan!*

Tunzala Yusubova ilə söhbətimizdə isə Elşən Orucovun ailə daxilindəki obrazı ön plana çıxdı.



Tunzala xanım müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elşən Orucovun həyat yoldaşıdır. O da mütəmadi olaraq belə tədbirlərin keçirilməsini müsbət qiymətləndirdi və şəhid ailələrinə göstərilən diqqətə görə təşəkkür etdi.

Şəhidimiz Elşən Orucov 6 avqust 1991-ci ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. Atası Ehtiram Orucov da Birinci Qarabağ müharibəsində şəhid olub. Elşən 2009-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2011-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. Vətən müharibəsində Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində döyüşlərdə iştirak edib. 5 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Tunzala xanım həyat yoldaşını ailəsinə bağlı, cəsarətli və Vətəninə sadiq insan kimi xatırlayır. Onun sözlərinə görə, Elşənin xarakterində ən çox diqqət çəkən cəhətlərdən biri məsuliyyət hissi olub. Döyüş yoldaşlarının xatirələrində də o, qorxmaz və etibarlı hərbi qulluqçu kimi qalıb.

Şəhidimiz Elşənin qızı Ayla isə atasının ona “qıvırcıq” deməsini xatırlayır. Bu söz onun yaddaşında atasının səsi ilə bağlı qalan ən doğma xatirələrdəndir. Elşən şəhid olanda Ayla beş yaşında idi. İndi isə atasının onu qoruduğuna, yanında olduğuna və onu eşitdiyinə inanır.

Günün sonunda uşaqların söhbətləri yenə məktəbə qayıtdı. Kimisi yeni sinifdən, kimisi dərslərindən, kimisi universitetə qəbuldan danışdı. Böyüklərin söhbətində isə şəhidlərin keçdiyi həyat yolu, ailələrdə qorunan xatirələr və övladların gələcəyi vardı. Uşaqların uğurları, təhsilə münasibəti və gələcəklə bağlı planları söhbətlərin əsas mövzularından birinə çevrildi.

Şəhid ailələrinin övladları böyüyürlər. Onlar məktəbə gedir, universitetə qəbul olur, peşə seçir, həyatlarında qarşılarına yeni məqsədlər qoyurlar. Bu yolun hər mərhələsində atalarının adı da onların həyatında yaşayır. Bəzən bir fotoşəkildə, bəzən evdə saxlanılan oyuncaqda, bəzən də atasından eşitdiyi bir sözdə.

Bilik Günü onlar üçün yeni dərs ilinin başlanğıcıdır. Qarşıda dərslər, imtahanlar, yeni uğurlar və həyatın başqa mərhələləri var. Bu uşaqların hər birinin öz yolu olacaq. Onların atalarının yolu isə artıq tarixə çevrilib. Həmin tarixin ailələrdə xatirə kimi, övladların həyatında isə ad və nümunə kimi yaşaması davam edir.





“Birliklə başla, Zəfərlə ucal!” devizi altında keçirilən görüşün məğzi də elə bu birlikdə idi - uşaqların sevincini bölüşmək, onları bir araya gətirmək, təhsildə qazandıqları uğurları qiymətləndirmək və şəhid ailələrinin övladlarının yanında olmaq. Bilik Günü ərəfəsində başlayan bu görüş uşaqlar üçün sadəcə bir tədbir kimi deyil, yeni dərs ilinin ilk xatirələrindən biri kimi yadda qalacaq. Bu yaddaşın arxasında isə Vətən torpağının müdafiəsi naminə ən ağır sınaqlardan keçmiş, ərazi bütövlüyümüz uğrunda canından keçən hərbi qulluqçularımızın şərəfli yolu dayanır. Onlar öz həyatlarını Vətənin təhlükəsizliyinə, xalqın əmin-amanlığına və torpaqlarımızın müdafiəsinə həsr etdilər. Döyüş meydanında qarşılarına çıxan çətinliklərdən çəkinmədilər, ən ağır anlarda belə üzərlərinə düşən vəzifəni sona qədər yerinə yetirdilər. Hər birinin keçdiyi döyüş yolu Vətən qarşısında sədaqətin, Hərbi Anda bağlılığın və əsl vətəndaş məsuliyyətinin nümunəsinə çevrildi. Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə hərbi qulluqçularımız gözlərini belə qırpmadan canlarını Vətənə sipər etdilər. Onların göstərdiyi igidlik yalnız döyüş meydanında qazanılan qələbənin deyil, həm də gələcək nəsillərə ötürülən mənəvi dəyərin bir hissəsidir. Bu gün azad və təhlükəsiz şəraitdə yaşayan, məktəbə gedən, təhsil alan, arzularının ardınca gedən hər bir uşağın gələcəyində həmin fədakarlığın payı var. Şəhidlərimizin həyat yolu göstərir ki, Vətən sevgisi yalnız sözlə ifadə olunan hiss deyil, lazım gəldikdə onun müdafiəsi üçün məsuliyyət götürmək, çətinlik qarşısında geri çəkilməmək və ən ali dəyər uğrunda mübarizə aparmaqdır. Bu baxımdan şəhid övladlarının uğurları da xüsusi məna daşıyır. Onların yaxşı təhsil alması, bilik və bacarıqlarını inkişaf etdirməsi, cəmiyyətə faydalı vətəndaş kimi formalaşması şəhidlərimizin arzuladığı gələcəyin davamıdır. Hər bir uğurlu addım, hər bir nailiyyət onların xatirəsinə göstərilən ehtiramın daha bir ifadəsinə çevrilir. Şəhidlərin adı ailələrində sevgi və qürurla, xalqımızın yaddaşında isə ehtiramla yaşadılır.

Vətən uğrunda canından keçənlərin xatirəsini yaşatmaq yalnız onları yad etmək deyil. Bu, onların uğrunda mübarizə apardığı dəyərləri qorumaq, Vətənə bağlılığı gələcək nəsillərə aşılamaq və ölkənin gələcəyinə məsuliyyətlə yanaşmaqdır. Çünki bu gün böyüyən hər bir şəhid övladı sabahın müəllimi, həkimi, mühəndisi, hərbçisi və ya başqa bir peşənin sahibi olacaq. Onların qazandığı hər uğurda Vətən üçün canından keçmiş atalarının adı da yaşayacaq.

Şəhidlərimizin göstərdiyi igidlik, sədaqət və fədakarlıq Azərbaycan xalqının milli yaddaşında daim yaşayacaq. Onların gözünü qırpmadan canını Vətənə sipər etməsi, torpağın müdafiəsi uğrunda həyatını ortaya qoyması gələcək nəsillər üçün əsl vətənpərvərlik məktəbidir. Bu məktəbin ən mühüm dərsi isə Vətəni sevməyin onu yalnız sözlə deyil, əməl, məsuliyyət və sədaqətlə yaşatmaqdan ibarətdir.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

# Vətən Müharibəsi Qəhrəmanı Zaur Nudirəliyevin anım mərasimi keçirildi



*Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən Müharibəsi Qəhrəmanı Zaur İsmayıl oğlu Nudirəliyevin əziz xatirəsinə həsr edilən anım mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri və döyüş yoldaşları onun məzarını ziyarət etdi, önünə əklil və gül dəstələri qoydular.*

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa edildi.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi qələbədən, eləcə də uğurlu döyüş əməliyyatlarında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışdılar.

Vətən Müharibəsi Qəhrəmanının ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Vətən Müharibəsi Qəhrəmanı Zaur Nudirəliyev 1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olub. 1992-ci ildən 1995-ci ilə qədər Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan Z.Nudirəliyev 1995-ci ildə Türkiyə "Hava Harp Okulu"na daxil olaraq, 2000-ci ildə həmin məktəbi "Təyyarəçi" ixtisası üzrə bitirib.

"N" hərbi hissələrində müxtəlif vəzifələrdə çalışan Zaur Nudirəliyev Azərbaycan Hərbi Hava Qüvvələrinin sıralarında xidmət etdiyi 20 il ərzində bir sıra yeni döyüş üsullarını ərsəyə gətirərək uğurlu sınaqlardan sonra döyüşlərdə tətbiq etmişdir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Komandanlığı tərəfindən "Su-25" hücum təyyarələrində yeni döyüş üsullarının istifadə olunması ilə bağlı qərar verilərkən komandanlıq bu işi təhsilini və hərbi təlimlərdə qazandığı təcrübəni nəzərə alaraq Zaur Nudirəliyevə həvalə etmişdir.





44 günlük Vətən müharibəsində Zaur Nudirəliyevin idarə etdiyi "Su-25" hücum təyyarəsi verilən döyüş tapşırığının yerinə yetirilməsi üçün Cəbrayıl istiqamətində uçuşa yollanıb. Zaur Nudirəliyevin idarə etdiyi təyyarə həmin ərazidə təyin olunmuş hədəfə yaxınlaşan zaman idarəetmə məntəqəsinə Ermənistan Hava Hücumundan Müdafiə Qoşunlarının müdafiə vasitələrinin hazır vəziyyətə gətirilməsi barədə operativ məlumat daxil olub. Buna görə də dərhal onlara geri qayıtmaq tapşırığı verilib. Ancaq Zaur Nudirəliyevlə əlaqə kəsilib və o, çağırışa cavab verə bilməyib. Onun idarə etdiyi təyyarə Ermənistan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən vurulub. Zərbə nəticəsində "Su-25" hücum təyyarəsinin Katapult oturacağını zədələmədiyi üçün onun xilas olmaq ehtimalı yaranıb. Amma həmin günlərdə Cəbrayıl şəhəri və onun ətraf yaşayış məntəqələri istiqamətində şiddətli döyüşlər getdiyi üçün onun paraşütlə eniş edəcəyi halda Ermənistan Silahlı Qüvvələrinin nəzarəti altında olan ərazilərə düşərək, qarşı tərəfə əsir düşmə ehtimalı da var idi. Buna görə də Zaur Nudirəliyev "Atəş ramı" etməyi qərara alır və "Su-25" hücum təyyarəsini Ermənistan ordusunun bir qrup canlı qüvvəsinin cəmləşdiyi yerdə, zirehli nəqliyyat vasitəsinə çırpmaqla taran edən ilk azərbaycanlı pilot kimi tarixə düşüb.

Şəhidin nəşi Hərbi Memorial Məzarlıqda dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, Zaur İsmayıl oğlu Nudirəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və 1-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Bolqarıstan Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycanda səfərdə olub



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan və Bolqarıstan respublikalarının Müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, "Hərbi qulluqçuların mədəni və sosial məsələlərinin mübadiləsi, həmçinin tətil, məzuniyyət və istirahət müəssisələrinin qarşılıqlı və səmərəli istifadəsinə dair" işçi görüşü keçirilib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji Təminat İdarəsində keçirilən görüşdə Azərbaycan Ordusunda hərbi qulluqçuların asudə vaxtının səmərəli təşkil edilməsi sahəsində görülən işlər barədə məlumat verilib və bu istiqamətdə mövcud əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Tədbirin sonunda hədiyyə mübadiləsi aparılıb və xatirə fotosu çəkdirilib.

# NATO-nun DEEP proqramı çərçivəsində "Müəllimlərin təkmilləşdirilməsi treninqi"nin IV mərhələsi keçirilib



Heydər Əliyev adına Hərbi İnstitutda NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" (Defence Education Enhancement Programme - DEEP) çərçivəsində Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinin professor-müəllim heyəti üçün "Müəllimlərin təkmilləşdirilməsi treninqi"nin IV mərhələsi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbir çərçivəsində iştirakçılara müasir təlim və tədris metodları, məşğələlərin səmərəli təşkili, təlim nəticələrinin qiymətləndirilməsi, təhsil proqramlarının hazırlanması və təkmilləşdirilməsi, qarşılıqlı effektiv müəllim-tələbə əlaqəsinin qurulması və digər aktual mövzular üzrə məlumatlar təqdim olunub.

Treninqin əsas məqsədi hərbi təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin pedaqoji və metodiki bacarıqlarının təkmilləşdirilməsi, müasir tədris metodlarının tətbiqinin genişləndirilməsi, təhsil prosesinin səmərəliliyinin artırılması, eləcə də hərbi təhsilin qabaqcıl beynəlxalq təcrübə və NATO standartları əsasında inkişaf etdirilməsidir.



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

*(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

***Suallar:***

*1. Azərbaycanın Qarabağ bölgəsi.*

*2. Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək.*

*3. Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır!*

## Azərbaycanın Qarabağ bölgəsi

Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx və Tağlar düşərgələri ilə tanınır. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyətindən sonrakı dövrlərdə mövcud olmuş müxtəlif arxeoloji mədəniyyətlərin daşıyıcılarının yaşayış məskəni olmuşdur. Quruçay mədəniyyəti 1 milyon 200 min ildən artıq tarixə aid edilir. Bu bölgə Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı əraziləri əhatə edən tarixi-coğrafi məkan kimi tanınır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki “qara” və “bağ” sözləri ilə əlaqələndirilir. “Qarabağ” sözü ilk mənbələrdə təxminən 1300 il bundan əvvəl, VII əsrdən etibarən işlənmişdir. Azərbaycan dilində “qara” sözünün rəngdən başqa “qalın”, “böyük” kimi mənaları da vardır.

Azərbaycan ərazisində qədim dövrlərdən etibarən zəngin mədəniyyətlə yanaşı, dövlətçilik ənənələri də formalaşmışdır. E.ə. III minillikdən eramızın ilk əsrlərinədək olan dövrdə bu torpaqlarda ən qədim tayfa birlikləri, erkən dövlətçilik ənənələrinin əsası qoyulmuşdur. Bu dövrdə Azərbaycan ərazisində Kuti, Lullubi, Turukki kimi qədim tayfa birlikləri, Manna, Atropatena və Albaniya kimi dövlət qurumları mövcud olmuşdur.

Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e.ə. IX-VI əsrlərdə mövcud olmuşdur. Manna Azərbaycan dövlətçilik tarixində mühüm yer tutur. Manna Assuriya və Urartu ilə mübarizədə müstəqilliyini qorumağa nail olmuş, Azərbaycanın şimalında, o cümlədən Qarabağ ərazisində də həmin dövrün siyasi prosesləri davam etmişdir.

Makedoniyalı İsgəndərin (e.ə. 336-323) Əhəməni dövlətini məğlub etməsindən sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoydu. İsgəndərin imperiyası parçalandıqdan sonra Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yarandı. Qarabağın böyük hissəsi müxtəlif dövrlərdə Qafqaz Albaniyasının siyasi və mədəni təsir dairəsində olmuşdur.

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin yürüşləri və bölgədə siyasi sistemin dəyişməsi ilə bağlı olmuşdur. IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər, Salarilər, Şəddadilər, Eldəgizlər və Şirvanşahlar dövrü Azərbaycanın siyasi tarixində mühüm mərhələlərdən biri idi. Sacilər və Atabəylər dövlətləri Azərbaycanın müxtəlif tarixi ərazilərinin siyasi cəhətdən birləşdirilməsində mühüm rol oynamışdılar.

Monqolların yürüşləri zamanı zəifləmiş Atabəylər dövlətinə son qoyuldu. Xarəzmşah Cəlaləddinin Azərbaycanda hakimiyyəti dövründə (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi. Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə Qarabağ ərazisi də digər Azərbaycan torpaqları kimi monqol hakimiyyəti altına keçdi. Daha sonra Qarabağ ərazisi Hülakülər (Elxanilər) dövlətinin (1256-1357) tərkibində oldu.

Səfəvi dövlətinin yaranması ilə (1501) Azərbaycan torpaqlarının mərkəzləşdirilməsi prosesinə başlanıldı. Səfəvilər dövründə ölkə inzibati cəhətdən bəylərbəyliklərə bölünmüşdü. Onlardan biri də mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi idi. Bəylərbəyilər Qızılbaşlardan təyin olunurdu və onlar həmin ərazini irsən idarə edirdilər. XVI əsrdə Səfəvi dövlətinin inzibati sistemində Qarabağ-Gəncə bəylərbəyliyi mühüm yer tuturdu. Qarabağ bəylərbəyliyi Səfəvi imperiyasındakı 3 Azərbaycan mərkəzindən biri idi. XVI əsrin başlanğıcında Azərbaycan Səfəvilər dövlətinin yaratdığı inzibati ərazilərdən biri olan Qarabağ bəylərbəyliyinin tərkibinə XVII əsrdən XVIII əsrin əvvəlinə qədər Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil kimi ərazilər daxil idi.

## Mövzu: Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır!

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları Qacarlar, Çar imperiyası və Osmanlı dövlətləri arasında gedən müharibələr meydanına çevrildi. XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ əraziləri də Osmanlı-Səfəvi və sonrakı Qacar - Çar imperiyası qarşıdurmalarının təsirinə məruz qaldı.

Sonuncu Səfəvi şahı III Abbasın dövrünün başa çatmasından sonra 1736-cı ildə Nadir şah Əfşar hakimiyyətə gəldi. Nadir şah Gəncə-Qarabağ bəylərbəyliyi bölgəsində mərkəzi hakimiyyətə tabeçilik məsələsində sərt siyasət həyata keçirdi. Bu dövrdə bölgədəki müsəlman əhali və yerli feodal hakimiyyətləri üzərində təzyiq artdı.

Nadir şahın 1747-ci ildə öldürülməsindən sonra Azərbaycan ərazisində bir sıra xanlıqlar və sultanlıqlar yarandı. Bu xanlıqlardan biri də əsası Cavanşirlər sülaləsinin Sarıcalı oymağından olan Pənah Əli xan tərəfindən qoyulan Qarabağ xanlığı idi. Kür və Araz çayları arasında geniş ərazini əhatə edən Qarabağ xanlığının siyasi mərkəzi Şuşa şəhəri oldu.

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ müxtəlif tarixi dövrlərdə Albaniya, Ərəb xilafəti, Sacilər, Salarilər, Şəddadilər, Eldəgizlər, Elxanilər (Hülakülər) Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Osmanlılar, Əfşarlar və Qacarlar kimi dövlətlərin hakimiyyəti altında olmuşdur.

## Qarabağ XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən çar Rusiyası Cənubi Qafqazda fəal siyasət həyata keçirməyə başladı. I Pyotrun Xəzər hövzəsinə və regionun geostrateji mövqeyinə marağı Çar Rusiyasının Qafqaz siyasətinin güclənməsində mühüm amillərdən biri idi. XVIII əsrdən etibarən Qafqazda hərbi-siyasi mövqelərini genişləndirən Rusiya imperiyası XIX əsrin birinci yarısında Şimali Azərbaycanın böyük hissəsini öz hakimiyyəti altına aldı.

1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xan ilə Rusiya imperiyası arasında “Kürəkçay” traktatı imzalandı. 11 maddədən ibarət bu sənədlə Qarabağ xanlığı Rusiya imperiyasının məcburi ali hakimiyyətini, himayəsini qəbul etdi. Kürəkçay müqaviləsindən sonra Rusiya imperiyasının Cənubi Qafqazda mövqeyi gücləndi və 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri ilə Azərbaycanın şimal ərazilərinin böyük hissəsi Rusiyanın hakimiyyəti altına keçdi. Türkmənçay müqaviləsindən sonra ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün şərait yarandı. 1828–1830-cu illərdə İrandan, daha sonra isə Osmanlı imperiyasından erməni ailələrinin bölgəyə köçürülməsi həyata keçirildi. Bu siyasət əvvəlcən hesablanmış çirkin planların həyata keçirilməsinə rəvac verdi. Köçürülən əhali əsasən İrəvan, Naxçıvan və Qarabağ da daxil olmaqla müxtəlif ərazilərdə yerləşdirildi. Bu köçürmələr Cənubi Qafqazın etnik-demoqrafik mənzərəsinə təsir göstərən mühüm proseslərdən biri oldu. 1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək Qarabağ əyaləti yaradıldı.

Ümumilikdə, 1828-1830-cu illərdə Qacarlar və Osmanlı imperiyalarından Cənubi Qafqaza, o cümlədən Şimali Azərbaycan ərazilərinə ermənilərin kütləvi köçürülməsi həyata keçirildi. Mövcud rəsmi məlumatlarda həmin dövrdə Qacarlar ərazisindən təxminən 40 min, Osmanlı ərazisindən isə 100 mindən artıq erməni ailəsinin Cənubi Qafqaza köçürüldüyü göstərilir. Bu köçürmələr Qarabağ da daxil olmaqla bir sıra ərazilərin etnik-demoqrafik vəziyyətinə təsir göstərir və gələcəkdə münaqişə ocağının yaradılmasına zəmin yaradırdı.

1905-ci ildən başlayaraq Azərbaycan əhalisinə qarşı erməni birləşmələri müxtəlif bölgələrdə kütləvi zorakılıqlar və etnik təmizləmə siyasəti həyata keçirildi. Bu proses Qarabağ ərazisində də faciəli nəticələr doğurdu. Birinci Dünya müharibəsinin yaratdığı mürəkkəb siyasi şəraitdən istifadə edən erməni millətçi dairələri “Böyük Ermənistan” ideyasını irəli sürərək ərazi iddialarını genişləndirməyə çalışdılar. 1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra Cənubi Qafqazda yaranmış siyasi və hərbi böhran şəraitində erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı zorakılıqları daha da genişləndi.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan tarixində yeni dövr başlandı. 1918-1920-ci illərdə Qarabağda silahlı qarşıdurmalar və etnik zorakılıqlar baş verdi, bir sıra yaşayış məntəqələri dağıdıldı və minlərlə azərbaycanlı öz doğma yurdlarından didərgin salındı.

1920-ci ilin iyunun əvvəllərində Qarabağda sovet hakimiyyətinə qarşı üsyan baş verdi. Nuru Paşa rəhbərlik etdiyi qüvvələrin iştirakı ilə Şuşada sovet hakimiyyətinə qarşı müqavimət göstərildi. İyunun 15-də XI Qızıl Ordu hissələrinin bölgəyə daxil olması ilə sovet hakimiyyəti yenidən bərpa edildi.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də yaradılmış və müsəlman Şərqində ilk demokratik parlament respublikası olmuşdur. Rusiya imperiyasının süqutundan sonra Cənubi Qafqazda yaranmış siyasi vəziyyət nəticəsində Ermənistan Respublikası da 1918-ci ildə elan edildi. Sonrakı illərdə tarixi Azərbaycan torpağı olan İrəvan, Zəngəzur, Göyçə və Naxçıvan ətrafında mürəkkəb siyasi və inzibati proseslər baş verdi. Bu proseslər regionun gələcək siyasi xəritəsinə ciddi təsir göstərdi.

1923-cü il iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Muxtar vilayət Azərbaycan SSR-in tərkibində yaradılmış inzibati qurum idi və onun inzibati mərkəzi Xankəndi müəyyən edildi. Beləliklə, sovet dövründə Qarabağın dağlıq hissəsinə muxtar inzibati status verildi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ sovet inzibati sistemi daxilində aran və dağlıq hissələrə bölünmüş şəkildə idarə olunurdu. Təzyiqlər nəticəsində Muxtar vilayətin yaradılması sonrakı illərdə Qarabağ məsələsi ətrafında yaranacaq siyasi mübahisələr üçün zəmin yaradan amillərdən birinə çevrildi.

## Qarabağ qədim türk yaşayış məskənidir. Qarabağ Azərbaycandır!

Sovetlər dövründə azərbaycanlı əhalinin tarixi yaşayış yerlərindən məcburi köçürülməsi də Qarabağ məsələsinin mühüm səhifələrindən biridir. 1948-1953-cü illərdə Ermənistan SSR-dən azərbaycanlı əhalinin deportasiyası həyata keçirildi. Bu proses nəticəsində minlərlə azərbaycanlı ailəsi öz ata-baba yurdlarından köçürülərək Azərbaycan SSR-in müxtəlif rayonlarında yerləşdirildi.

1960-1970-ci illərdə Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı separatçı təşəbbüslərin qarşısının alınması istiqamətində mühüm tədbirlər görüldü. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra Heydər Əliyevin rəhbərliyi ilə keçmiş DQMV-nin iqtisadi və sosial inkişafına diqqət artırıldı. Şuşanın inkişaf etdirilməsi, 1973-cü ildə Xankəndidə Pedaqoji İnstitutun açılması və 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu xəttinin istifadəyə verilməsi həmin dövrün mühüm layihələri sırasında idi. Ulu Öndər Heydər Əliyevin həmin dövrlərdə apardığı uğurlu siyasət bölgədəki qarşıdurmanı azaltdı.

Beləliklə, həyata keçirilən sosial-iqtisadi tədbirlər Qarabağın inkişafına və bölgənin Azərbaycanla iqtisadi əlaqələrinin möhkəmlənməsinə mühüm təsir göstərdi.

1988-ci ildə erməni millətçi dairələri Qarabağın Ermənistanla birləşdirilməsi tələbini yenidən gündəmə gətirdilər. Uydurma "Dənizdən-dənizə" "Böyük Ermənistan" miflərini ortaya atdılar. Eyni dövrdə Ermənistan SSR-də azərbaycanlı əhalinin tarixi yaşayış məntəqələrindən çıxarılması prosesi genişləndi. Yüzlərlə azərbaycanlı öldürüldü, yüz minlərlə soydaşımız öz tarixi yaşayış yerlərindən qovuldu.

1989-cu ildə keçmiş DQMV-də “Xüsusi İdarəçilik Komitəsi” yaradıldı və muxtar vilayətin Azərbaycanla inzibati əlaqələri faktiki olaraq zəiflədi. Silahlı erməni dəstələrinin fəaliyyəti nəticəsində Qarabağ və ətraf ərazilərdə azərbaycanlı əhali doğma yurdlarından çıxarıldı.

Ermənistanın hərbi müdaxiləsi nəticəsində Azərbaycanın təxminən 20 faizlik ərazisi işğal olundu.

Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşdü, 20 mindən çox insan həlak oldu, 50 mindən çox insan əlil oldu, 4 minə yaxın azərbaycanlı isə itkin düşdü.

1994-cü il mayın 12-də atəşkəsə dair razılıq əldə olunduqdan sonra da Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddiaları davam etdi. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” bəyanatı bu iddiaların davam etdiyini göstərdi.

**(Ardı 8-ci səhifədə)**

# "Azıx mağarası - minilliklərin yadigarı..."



Xocavənd rayonunun Azıx kəndi Quruçay vadisinin sol sahilində, dağətəyi ərazidə yerləşir. Kəndin adı yaxınlığındakı Azıx mağarası ilə bağlıdır. Qarabağın bu qədim guşəsində yerləşən mağara Azərbaycan paleolit dövrünün öyrənilməsi baxımından mühüm arxeoloji abidələrdən biridir. Azıx mağarasının elmi tədqiqi 1960-cı ildə Tarix elmləri doktoru, professor Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılan qazıntılarla yeni mərhələyə qədəm qoydu. XX əsrin araşdırmaları zamanı mağaranın müxtəlif təbəqələrindən daş əmək alətləri, heyvan sümükləri, ocaq qalıqları və qədim insana aid antropoloji materiallar aşkar edilib. Bu tapıntılar Azıxda insan fəaliyyətinin müxtəlif mərhələlərini izləməyə imkan verdi. Mağaranın aşağı təbəqələrindən əldə edilən daş məmulatlar Quruçay arxeoloji mədəniyyəti ilə əlaqələndirilir. Araşdırmalar məlum etmişdir ki, mədəniyyətin başlanğıcı təxminən 1 milyon 200 min il əvvələ aid edilir. Quruçay mədəniyyəti adını mağaranın qarşısından keçən Quruçay çayından alıb və bu anlayışın elmi dövriyyəyə daxil edilməsində Məmmədəli Hüseynovun mühüm rolu olub. Quruçay təbəqələrində aparılan arxeoloji tədqiqatlar qədim insanın əmək fəaliyyətinin xarakterini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. İri daş parçaları, qəlpələr və işlənmiş nümunələr təbii daş xammalının seçildiyini, zərbə yolu ilə parçalandığını və yaranan kənarların əmək prosesində istifadə edildiyini göstərir. Sadə görünüşlü bu alətlər öz dövrünün texniki imkanlarını əks etdirir. Quruçay mədəniyyətinə aid aşkar edilmiş daş məmulatlar qədim dünyanın digər erkən mədəniyyətləri ilə müqayisə ediləcək qədər qədimdir. Şərqi Afrikadakı "Olduvay" mədəniyyəti ilə aparılan müqayisə göstərir ki, hər iki arxeoloji kompleksdə daş xammalının zərbə yolu ilə işlənməsi və əmək alətlərinin hazırlanması baxımından müəyyən oxşar xüsusiyyətlər mövcuddur. Bu yaxınlıq qədim insanların daşdan əmək vasitəsi hazırlamaq təcrübəsinin müxtəlif coğrafi ərazilərdə oxşar üsullarla meydana çıxdığını göstərən maraqlı nümunədir. Mağaranın sonrakı təbəqələri də qədim insan fəaliyyətinin müxtəlif mərhələlərini izləməyə imkan verir. VI təbəqədən Aşel mədəniyyətinin daha qədim mərhələsinə aid daş alətləri və çoxsaylı heyvan qalıqları aşkar olunub. Azıxın elmi əhəmiyyətini artıran ən mühüm tapıntılardan biri 1968-ci ildə aşkar edilmiş qədim insanın alt çənə qalığıdır. Tapıntı mağaranın V təbəqəsindən əldə edilib. Məmmədəli Hüseynov bu qədim insan qalığını "Azıxantrop" adlandırıb və bu termin sonradan elmi ədəbiyyatda geniş istifadə olunub. Qədim insan qalığı Azıx mağarasından aşkar edildiyi üçün "Azıxantrop" adı ilə tanınıb.

Professor Məmmədəli Hüseynovun Azıxla bağlı fəaliyyəti bir tapıntı ilə məhdudlaşmır. Onun rəhbərliyi ilə aparılan uzunmüddətli qazıntılar mağaranın arxeoloji təbəqələrinin öyrənilməsinə, daş məmulatının sistemləşdirilməsinə və Azərbaycanın paleolit tarixinin elmi əsaslarla araşdırılmasına mühüm imkan yaratdı. Sonrakı tədqiqatlarda Quruçay, Qədim Aşel, Orta Aşel və Mustye mərhələlərinə aid materiallar da araşdırılıb.

Azıx mağarasının tarixində işğalın ağır izləri də var. Qarabağın Ermənistan tərəfindən işğalı illərində Azərbaycan ərazisindəki bir sıra arxeoloji və memarlıq abidələri dağıntılara, talana və qanunsuz müdaxilələrə məruz qalıb. Azıx mağarası da bu prosesdən kənarda qalmayıb. İşğal dövründə tarixi proseslərin saxtalaşdırılması məqsədilə mağarada qanunsuz arxeoloji qazıntı və tədqiqatların aparılması rəsmi məlumatlarla öz əksini tapıb. Tarixi-mədəni irsə qarşı həyata keçirilən bu cür əməllər Azərbaycan xalqının çoxəsrlik maddi irsinə vurulmuş ciddi zərər kimi qiymətləndirilməlidir.

44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Qarabağın tarixi və mədəni irsi də yenidən Azərbaycan dövlətinin nəzarətinə qayıtdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 15 mart 2021-ci ildə Xocavənd rayonuna səfəri zamanı Azıx mağarasına baş çəkməsi bu baxımdan mühüm hadisə oldu.

Prezident İlham Əliyev mağaranın girişində onun Azərbaycan tarixinə məxsus olduğunu və Azərbaycanın tarixi sərvəti sayıldığını bir daha ictimaiyyətin diqqətinə çatdırdı. O, həmçinin işğal dövründə burada qanunsuz fəaliyyət aparıldığını, xaricdən alimlərin gətirildiyini və tarixi irsimizə ziyan vurulduğunu vurğuladı. Prezident İlham Əliyev gələcəkdə tədqiqatların Azərbaycan alimləri və onların dəvəti ilə gələcək xarici mütəxəssislər tərəfindən qanuni əsaslarla aparılacağını bildirdi.



Həmin səfər zamanı Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə gördüyü dağıntılara da münasibət bildirərək Azərbaycanın bu torpaqlara "qəhrəman xalq kimi, müzəffər dövlət kimi" qayıtdığını vurğuladı. Azıx mağarasının qarşısında səsləndirdiyi "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!" sözləri isə səfərin yadda qalan məqamlarından birinə çevrildi.

Bu gün Azıx mağarasının əhəmiyyəti yalnız onun qədimliyi ilə ölçülmür. Buradakı daş alətlər qədim insanın əmək fəaliyyətini, arxeoloji təbəqələr müxtəlif tarixi mərhələləri, fauna qalıqları keçmiş təbii mühiti ifadə edir. Tarix elmləri doktoru, professor Məmmədəli Hüseynovun başladığı araşdırmalar paleolit dövrünün öyrənilməsində mühüm mərhələ yaratdı. Azıxla bağlı əldə olunan nəticələr Azərbaycan ərazisinin qədim insan tarixində tutduğu yerin öyrənilməsinə mühüm zəmin yaradıb. Arxeoloji tapıntılar Azərbaycanın ən qədim tarixinin müxtəlif mərhələlərini əks etdirən mühüm maddi sübutlardır. Onların qorunması və elmi əsaslarla araşdırılması tariximizin gələcək nəsillərə çatdırılması baxımından mühüm vəzifədir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasında "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" bəyanatına cavab verdi: "Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrində çıxış edərək, Ermənistanın Azərbaycana qarşı hərbi-siyasi siyasətini diqqətə çatdırdı və beynəlxalq ictimaiyyəti Ermənistanın yeni hərbi təxribatlarının qarşısının alınması istiqamətində addımlar atmağa çağırdı. Həmin dövrdə ATƏT-in Minsk qrupu da Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin həlli üzrə danışıqlar prosesinin əsas vasitəçilərindən biri idi. Amma 30 il ərzində münaqişənin həlli üçün heç bir əməl tədbir həyata keçirilməmişdir.

Lakin Ermənistanın hərbi təxribatları və Azərbaycanın ərazilərinin işğalının davam etməsi 2020-ci ilin sentyabrında yeni müharibəyə gətirib çıxardı. Azərbaycan xalqı 30 illik yurd nisgilindən sonra işğal faktına son qoyaraq tarixi Zəfərə imza atdı. Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsi nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərləri və çoxsaylı yaşayış məntəqələrini işğaldan azad etdi.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın, Azərbaycan Ordusunun və xalqımızın Zəfəri ilə başa çatdı. Haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bu qələbə Müzəffər Ali Baş Komandanın qətiyyəti və siyasi iradəsi, ordumuzun şücaəti, qəhrəmanlığı, hərbi qulluqçularımızın fədakarlığı, müqəddəs şəhidlərimizin canı, qanı və xalqımızın birliyi hesabına qazanıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev işğaldan azad edilmiş tarixi torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdı və bəyan etdi: "Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu yaşamışıq, bizim xalqımız yaşayıb".

**İdeoloji Təminat İdarəsi**

# İdman




### Azərbaycan millisinin voleybolçusu "Turan" klubuna keçib

Qadın voleybolçulardan ibarət Azərbaycan milli komandasının üzvü Yelizaveta Ruban "Turan"a keçib.

Klubdan AZƏRTAC-a verilən məlumata görə, 31 yaşlı oyunçu ilə 2026/2027-ci illər mövsümünün sonunadək müqavilə imzalanıb.

Təcrübəli hücumçu yeni mövsümdə həm Azərbaycan Yüksək Liqasında, həm də Avropa arenasında Tovuz təmsilçisinin uğurları üçün mübarizə aparacaq.

Qeyd edək ki, Yelizaveta Rubanın son klubu Rusiya təmsilçisi "Leninqradka" olub.

### Azərbaycanı təmsil edən konkurçu Belçikadakı turnirdə ikinci olub




Azərbaycanı atçılığın konkur növündə beynəlxalq arenada təmsil edən Patrik Makenti Belçikanın Lier şəhərində keçirilən turnirdə uğurlu nəticə göstərib.

İdmançı 135 santimetr hündürlüyündə maneələrin dəf edilməsi üzrə yarışda 39 iştirakçı arasında 59,90 saniyə nəticə və 0 cərimə balı ilə ikinci yeri tutub.

Patrik Makenti 6-8 yaşlı atlar üçün 130 santimetr hündürlüyündə maneələrin dəf edilməsi yarışında da iştirak edib. 28 atlı arasında mübarizə aparan idmançı marşrutu 69,16 saniyəyə və cərimə balı toplamadan başa vuraraq beşinci olub.

Qeyd edək ki, Patrik Makenti sentyabrın 16-20-də Belçikanın Lanaken şəhərində keçiriləcək gənc atlar arasında konkur üzrə dünya çempionatında çıxış edəcək.

### Messi MLS-də unikal rekorda imza atıb



ABŞ-nin "İnter Mayami" klubunun futbolçusu Lionel Messi MLS tarixində unikal rekorda imza atıb.

Argentinalı hücumçu "Atlanta Yunayted"lə ev oyununda (2:2) bir məhsuldar ötürmə edib. Bununla da onun cari mövsümdə qol və assistlərinin ümumi sayı 30-a (18 qol, 12 məhsuldar ötürmə) çatıb.

Ulduz futbolçu MLS tarixində 3 müxtəlif mövsümdə 30 və daha çox qolun vurulmasında birbaşa iştirak edən ilk oyunçu kimi tarixə düşüb.

Qeyd edək ki, "Atlanta Yunayted"lə qarşılaşma argentinalı ulduzun milli komandadakı karyerasını başa vurduğunu açıqlamasından sonra keçirdiyi ilk oyun olub.

**AZƏRTAC-ın materialları əsasında**

Məmmədov Elçin Telman oğluna verilmiş MV № 116692 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bayramov Natiq Rəhim oğluna verilmiş MV № 133213 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | leytenant Tamilla HÜSEYNLİ | Lisenziya № 361 Sifariş № 766 Nüsxə 3653 |